Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

## 9-cu sinif

# COĞRAFİYA

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Doğru fikirləri müəyyən edin.

1. Alp, Karpat və Skandinaviya dağları iki yarımkürədə yerləşir.
2. Hekla və Etna vulkanları litosfer tavalarının divergent sərhədində yerləşir.
3. Şimali Avropa regionunda fyordlara və moren tirələrinə rast gəlinir.
4. Ölkəmiz Oman və Yəmənlə bərabər Cənub-Qərbi Asiya regionunda yerləşir.
5. Afrika litosfer tavası ilə Ərəbistan litosfer tavaları bir-birlərinə yaxınlaşır.
6. Tepuilərin formalaşmasında axar sular iştirak etmir.

A) 2, 3, 5  B) 1, 3, 4  C) 1, 4, 6  D) 4, 5, 6  E) 1, 2, 3

**2.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




1. Afrika materikində Günəş zenitdə olur.
2. Şimal yarımkürəsinin quru səthində havanın ən yüksək orta temperaturu müşahidə edilir.
3. Ekvatorda günorta vaxtı günəş şüaları minimum bucaq altında düşür.
4. 40° cənub enliyində günorta vaxtı günəş şüaları ən kiçik bucaq altında düşür.
5. Kalimantan adasında günorta vaxtı şaquli cisimlərin kölgəsi şimal istiqaməti göstərir.
6. Qütb dairə xəttində gecə və gündüzün adi növbələşməsi pozulur.

A) I-4; II-5; III-1, 3, 6  B) I-1, 4; II-2, 5; III-3, 6
C) I-1, 3; II-4, 6; lII-2, 5  D) I-4, 5; II-1, 6; III-3
E) I-4; II-2, 5; III-3, 6

**3.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Okeanda 4500 metr dərinliyi exolot cihazı ilə 6 saniyəyə ölçmək mümkündür.
2. Afrika və Cənubi Amerika litosfer tavalarının toqquşma zonasında dərin okean çökəklikləri (novlar) yaranır.
3. Müvəqqəti və qısamüddətli yaşayış üçün əhalinin ölkəni tərk etməsi emiqrasiya adlanır.
4. Peru və Kurosio okean cərəyanları eyni okeanda hərəkət edir.
5. Koriolis qüvvəsi küləklərin, okean cərəyanlarının hərəkət istiqamətinə təsir edir.
6. Qabarma və çəkilmə dalğalarına qapalı axarsız hövzələrdə rast gəlinmir.

A) 2, 3, 5  B) 1, 3, 5  C) 2, 4, 6  D) 1, 4, 6  E) 2, 3, 6

**4**. *50° şərq uzunluğu ilə cənub istiqamətində hərəkət edən tədqiqatçı çatdığı məntəqə ilə cənub qütb dairə xətti arasındakı məsafənin 2220 km olduğunu müəyyən etdi. Bu məntəqəyə çatmaq üçün 721,5 kilometr hərəkət etdi.*
Tədqiqatçının hərəkətə başladığı məntəqənin yerləşdiyi paralel üçün doğru fikirləri müəyyən edin.

1.Tasmaniya adası ilə eyni işıqlanma qurşağında yerləşir.
2. Yer kürəsi xəyali oxu ətrafında fırlanma sürəti 1281 km/saat-dır.
3. İki materiklə kəsişir.
4. İl ərzində günorta vaxtı günəş şüalarının maksimum və minimum düşmə bucaqları fərqi 43°-dir.
5. Günorta vaxtı şaquli cisimlərin kölgə uzunluqları heç vaxt sıfıra bərabər ola bilməz.
6. Bakı şəhəri ilə arasındakı məsafə 1: 5550000 miqyaslı xəritədə 160 sm-dir.

A) 2, 4, 5  B) 3, 4, 5  C) 1, 2, 6  D) 1, 2, 3  E) 4, 5, 6

**5.** Əhali sayı 100 milyon nəfərdən çox olan ölkələri müəyyən edin.

1. Argentina  2. Filippin  3. Tailand
4. Əlcəzair  5. Efiopiya  6. Meksika

A) 1, 4, 5  B) 1, 3, 4  C) 2, 4, 6  D) 2, 5, 6  E) 2, 3, 5

**6**. Doğru fikirləri müəyyən edin.

1. Antisiklonun mərkəzində alçaq kənarlarında isə yüksək təzyiq formalaşır.
2. Aysberqlər həm okean, həm də örtük buzlaqlarından əmələ gəlir.
3. Böyük yeddilik qrupuna (G7) daxil olan ölkələrdən yalnız üçü federativ inzibati ərazi quruluşuna malikdir.
4. Antarktidadan başqa bütün materiklərdə savanna və seyrək meşələr təbii zonasına rast gəlinir.
5. Yeni Zelandiya, Sinqapur və İsrail İEÖ-lər qrupuna daxildir.
6. Okeanlarda olan bütün dalğalar xarici (ekzogen) qüvvələrin təsiri ilə formalaşır.

A) 4, 5, 6 B) 1, 2, 5 C) 2, 4, 6 D) 3, 4, 5 E) 1, 2, 3

**7.** Uyğunluğu müəyyən edin.
1. Passat küləkləri
2. Qərb küləkləri
3. Qütb küləkləri

a. Tropik enliklərdən mülayim enliklərə doğru hərəkət edir.
b. Ölkəmiz üçün xarakterikdir.
c. İstiqamətini ildə iki dəfə dəyişir.
d. Marakaybo gölünün yerləşdiyi işıqlanma qurşağı üçün səciyyəvidir.
e. Cənubi Amerika materikində müşahidə edilmir.

A) 1-d; 2-a, b; 3-e
B) 1-a, d; 2-b; 3-e
C) 1-b; 2-a, e; 3-d
D) 1- d; 2-a, b; 3-c
E) 1-a, d; 2-b; 3-c

**8**. Uyğunluğu müəyyən edin.
I Bərpa olunan təbii ehtiyatlar
II Bərpa olunmayan təbii ehtiyatlar

1. Hava 2. Kömür 3. Torpaq
4. Dəmir filizi 5. Fosforit 6. Su

A) I-2, 3, 6; II-1, 4, 5
B) I-3, 4, 5; II-2, 5, 6
C) I-1, 2, 4; II-3, 5, 6
D) I-2, 4, 5; II-1, 3, 6
E) I-1, 3, 6; II-2, 4, 5

**9.** ABŞ üçün doğru fikirləri müəyyən edin.
1. ÜDM-da sənayenin payı ən üstündür.
2. ÜDM-da adambaşına düşən gəlirə görə dünyada 1-ci yerdədir.
3. Qütb dairəsi ilə kəsişir.
4. Ən böyük kömür hövzəsi Missisipi ovalığındadır.
5. Ərazisində Günəş zenitdə olur.
6. Qurudan federativ ölkələrlə həmsərhəddir.

A) 1, 3, 5 B) 3, 5, 6 C) 2, 4, 6 D) 2, 3, 5 E) 1, 2, 4

**10.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin




a. Avrasiya materiki ilə kəsişir.
b. Üç yarımkürədə yerləşir.
c. Günəş hər zaman zenitdədir.
d. Sakit və Şimal Buzlu okeanlarla kəsişir.
e. Alp-Himalay geosinklinal qurşağı ilə kəsişir.

A) 1-b,c; 2-a, d; 3-e B) 1-a, b; 2-e; 3-c, d
C) 1-a; 2-b; 3-d D) 1-a-c; 2-b; 3-d
E) 1-c; 2-e; 3-d

**11.** Ölkəmizin hansı miqyasla tərtib edilmiş xəritəsi daha böyük sahəyə malikdir?

A) 1: 600 000
B) 1: 200 000
C) 1: 400 000
D) 1: 8 000 000
E) 1: 160 000

**12.** Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. Ölkəmizdə Günəş radiasiyasının maksimum həddi ildə 200 kkal/$sm^2$ Zəngəzur silsiləsindədir.<br>2. Ölkəmizin ərazisinin əsas hissəsi keçid iqlim qurşağında yerləşir.<br>3. Kəlbəcər və Cəbrayıl inzibati rayonları eyni ölkə ilə həmsərhəddir. | 4. Naxçıvanda həm polimetal, həm də molibden ehtiyatları mövcuddur.<br>5. Madaqaskar materik, Kalimantan isə vulkanik mənşəli adadır.<br>6. Səudiyyə Ərəbistanı mütləq, Bruney isə konstitusiyalı monarxiyadır. |

A) 2, 3, 5 B) 1, 5, 6 C) 1, 3, 4 D) 1, 3, 6 E) 2, 4, 5

**13.** Cədvəldəki uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Meridianlar yarımçevrə, paralellər isə çevrədir. | doğru |
| 2 | 70°şərq uzunluğunun əks meridianı 110° qərb uzunluğudur. | yanlış |
| 3 | Ekvatorda günəş şüalarının günorta vaxtı maksimum və minimum düşmə bucaq fərqləri 23,5°-dir. | yanlış |
| 4 | 22 iyun tarixində 62° şimal enliyində qütb gündüzləri baş verir. | doğru |
| 5 | Şimal-şimal-şərq istiqamətində hərəkət edən müşahidəçi 225°-lik azimutla geri qayıdar. | yanlış |
| 6 | Şimal yarımkürəsində qütb ulduzunun görünmə bucağı ilə coğrafi enliyin dərəcə qiyməti eynidir | doğru |

A) 2, 3, 5 B) 2, 3, 6 C) 1, 4, 6 D) 1, 5, 6 E) 1, 2, 4

**14.** Cədvələ əsasən uyğun xüsusiyyətləri seçin.

| N | Ölkələr | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | Yaponiya | İdarəetmə qanunları parlament tərəfindən qəbul edilir. |
| 2 | Monqolustan | Ərazisinin əksər hissəsi əkinçilik üçün yararlıdır. |
| 3 | Pakistan | Hind çayının mənsəbi yerləşir. |
| 4 | Çili | Braziliya ilə həmsərhəd deyil. |
| 5 | Kamerun | Günəş ilboyu zenitdə olur. |
| 6 | Türkiyə | Orta hündürlüyü Danimarkanın orta hündürlüyündən daha azdır. |

A) 1, 3, 4 B) 2, 4, 6 C) 1, 3, 5 D) 1, 2, 3 E) 4, 5, 6

**15.** Dağın ətəyində atmosfer təzyiqi 680 mm c.s.-dur. Dağın maksimum hündürlüyü dəniz səviyyəsindən 3300 metr yüksəkdə yerləşir. Dağın zirvəsi ilə ətəyi arasındakı temperatur fərqini Faranheyt şkalası ilə müəyyən edin. (Nəzərə alın ki, dəniz səviyyəsində təzyiq normaldır).

A) 56,4°F B) 35,8°F C) 69,3°F D) 48°F E) 59°F

**16**. İƏT (ECO) təşkilatına üzv ölkələrdən deyil:
1. İran 2. Gürcüstan 3. Türkiyə
4. Moldova 5. Pakistan 6. Ukrayna

A) 1, 5, 6 B) 2, 4, 6 C) 3, 4, 5 D) 2, 3, 6 E) 1, 2, 3

**17.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| S/S | Çaylar | Səciyyəvi əlamətlər |
|---|---|---|
| 1 | Ural | İki ölkə ərazisindən axır. |
| 2 | Amudərya | Şərq istiqamətdə hərəkət edir. |
| 3 | Konqo | Mənsəbinin yerləşdiyi okeanda Günəş ilboyu zenitdədir. |
| 4 | Taxo | Daxili dənizə tökülür. |
| 5 | Murrey | Mənbəyi qırışıq dağlarda yerləşir. |
| 6 | Amur | Kənar dənizə tökülür. |

A) 1, 4, 5 B) 1, 3, 6 C) 2, 4, 5 D) 2, 3, 6 E) 3, 4, 6

**18.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| S/S | İqtisadi rayonlar | Səciyyəvi əlamətlər |
|---|---|---|
| 1 | Quba-Xaçmaz | Tərkibində 9 inzibati rayon var. |
| 2 | Dağlıq Şirvan | Xarici ölkə ilə həmsərhəd deyil. |
| 3 | Gəncə-Daşkəsən | Filiz faydalı qazıntılar mövcuddur. |
| 4 | Şərqi Zəngəzur | Yalnız bir xarici ölkə ilə həmsərhəddir. |
| 5 | Mərkəzi Aran | Yalnız yarımsəhra və quru çöl iqliminə rast gəlinir. |
| 6 | Naxçıvan | Mülayim-isti iqlimə rast gəlinir. |

A) 1, 2, 6 B) 1, 3, 5 C) 2, 4, 5 D) 2, 3, 5 E) 3, 4, 6

**19.** A materiki həm Şimal, həm də Cənub yarımkürələrində və ümumilikdə üç yarımkürədə yerləşir. Bu materiklə bağlı cədvəldəki uyğunluğu müəyyən edin. (**+** ) **doğru,** (-) **yanlış**

| | | |
|---|---|---|
| 1 | Üç işıqlanma qurşağında yerləşir. | **-** |
| 2 | Şərq yarımkürəsində yerləşir. | **-** |
| 3 | Hər iki tropik xətti ilə kəsişir. | **+** |
| 4 | Silindrik proyeksiya ilə tərtib edilmiş xəritələrdə ən cənub hissəsi daha çox təhrifə məruz qalacaq. | **+** |
| 5 | XXIII saat qurşağının orta meridianı ilə kəsişir | **+** |
| 6 | Gecə və gündüzün ilboyu bərabər olduğu məntəqələr mövcuddur. | **-** |

A) 1, 4, 6 B) 2, 4, 6 C) 1, 3, 5 D) 2, 3, 5 E) 1, 2, 4

**20.** Cədvələ əsasən, çaylarla bağlı uyğun fikirləri müəyyən edin.

| Kür çayı | Araz çayı |
|---|---|
| 1. Üç ölkə ərazisindən axır.<br>2. Qızılgədik dağlarından başlayır.<br>3. Göyçay inzibati rayonunun ərazisindən axır. | 4. Gürcüstan ərazisindən axır.<br>5. Bingöl silsiləsindən başlayır.<br>6. Xəzər dənizinə birbaşa tökülür. |

A) 1, 2, 5 B) 2, 4, 6 C) 1, 3, 5 D) 1, 5, 6 E) 2, 3, 4